A.Ü.Türkiyat Araştırmaları Enstitüsü Dergisi [TAED] 45, ERZURUM 2011, 159-166

# BƏDİİ ƏSƏRDƏ YUXUGÖRMƏ VƏ ONUN FUNKSİYASI

## Dream in Literature and its Functions

**Dr. Dilbər ZEYNALOVA***

**ÖZ**

Təqdim olunan məqalədə bədii əsərdə yuxugörmə fenomeni və onun funksiyasından bəhs olunur. Yuxugörmə və bədii əsəri birbirinə yaxınlaşdıran simvoliklik, obrazlılıq, təhtəlşüurun təzahürü və s. kimi oxşar keyfiyyətlərlərdir. Elə buna görə də yuxugörmə müxtəlif sənətkarlar tərəfindən ən cox müraciət edilən bədii vasitədir. Məqalədə Azərbaycan ədəbiyyatında görkəmli yer tutan iki sənətkarın İsmayıl Şıxlı'nın "Dəli Kür", "Ölən Dünyam" və Yusif Səmədoglu'nun "Qətl Günü" romanlarından faktik material kimi istifadə olunmuş və yuxugörmənin bədii əsərdəki əhəmiyyətli mövqeyi təsbit edilmişdir.

**Anahtar Sözcükler:** Yuhugörme, İsmail Şıhlı, Yusif Samedoğlu, Deli Kür, Ölen Dünyam, Qetl Günü

**ABSTRACT**

In the presented article, it has been mentioned the dream motif and its functions. The factors that make dreaming and aesthetic converge are symbol, image and emergence of subconscious. In accordance with all these, dreaming is an artistic means frequently referenced by various writers. In the article, the dream motif in the novels of İsmail Şıhlı (Deli Kür, Ölen Dünyam) and Yusif Semedoglu (Qetl Günü) are made use of as a real material, and the importance of this motif has been determined in those unique works.

**Keywords:** Yuhugörme, İsmail Şıhlı, Yusif Samedoğlu, Deli Kür, Ölen Dünyam, Qetl Günü

### Giriş

Bədii əsər həm müəllifin refleksləri, həm də müxtəlif yaradıcılıq üsulları vasitəsilə ərsəyə gəlir. Hələ antik Yunan ədəbi estetik fikrində həm yuxugörmə, həm də bədii yaradıcılıq ilahi qüvvənin təhriki ilə yaranan bir hal kimi səciyyələnirdi. Daha sonralar bu fikri F. Şiller özünəməxsus şəkildə inkişaf etdirir: "Sənət əsəri şüusuzluqla şüurun vəhdətindən yaranır."[1] Müasir elm də hesab edir ki, yuxugörmə və incəsənət eyni sıradan olan bir anlayışdır. Əlbəttə,nəzərə alsaq ki, həm yuxugörmə, həm də incəsənət oxşar keyfiyyətlərlə xarakterizə (simvoliklik, obrazlılıq, təhtəlşüurun təzahürü) olunur, bu fikirlə razılaşmaq olar. Məhşur Rus alimi S. Averinsevin qənaətinə görə, "sənətkar ictimai yuxugörəndir,belə ki, hamının yerinə yuxunu o, görür; yuxu sakitləşdirmir, kompensasiya etmir, həmişə bu və ya digər dərəcədə xəbərdar edir."[1] Bu məqamda da bədii təxəyyül və yuxugörmənin oxşarlığını çətin ki, inkar etmək

---

* Azərbaycan Dillər Üniversitəti Öğretim Üyesi, Bakı

[1] Аверинцев С. С. Аналитическая психология К.-Г. Юнга и закономерности творческой фантазии // О современной буржуазной эстетике: Сб. ст. Вып. 3. М., 1972.c.153

mümkün olsun. Çox güman ki, yuxugörmə prosesindəki təsvirlər və yaradıcı təxəyyülün məhsulu olan obrazlar arasında əhəmiyyətli fərqlər də mövcuddur.

Yeri gəlmişkən, mətləbdən uzaqlaşmadan iki birbirinə yaxın anlayışın yerini dəqiqləşdirmək zərurəti meydana çıxır. Çox zaman "yuxu" və "yuxugörmə" terminləri qarışdırılır, onların arasında sərhəd qoyulmur. Amma elmi nöqteyi nəzərlə yanaşsaq, "yuxu müəyyən fasilələrlə gələn, dincliyin və rahatlığın fizioloji vəziyyətidir. Yuxugörmə isə yuxuda meydana gələn obrazlardır."[2] Göründüyü kimi, yuxu termininin əsasında fizioloji prosesin özü dayanırsa, yuxugörmədə başlıca element obraz və obrazlılıqdir. Obrazlılıq yuxugörməni söz sənəti ilə yaxınlaşdıran yeganə cəhət deyil. Burada digər bir məqamdan da söhbət açmaq yerinə düşərdi. Biz gördüyümüz yuxunu çatdiran zaman, bu faktın başqaları üçün yeganə mötəbər təsdiqi bizim özümüzün danışdığımız hekayətdir. Hərkəs belə bir situasiya ilə üzləşməmiş deyil ki, yuxuda onu həyəcanlandıran hadisələrin təəssüratlarını bütün dolğunluğu ilə çatdıra bilmir. Burada məsələ yalnız söz ehtiyatının kasıblığında deyil, bəlkə də daha çox obrazlar arasındakı çoxmənalı münasibəti dilin məntiqi konstruksiyalarının köməyi ilə çatdırılmasının mürəkkəbliyindədir. Yuxuda gördüklərini danışan hər kəs, şüurlu şəkildə yaradıcılıq aktına qatılmış olur; o, (yuxugörən D. Z.) süjeti, obrazları və gördüyünün mənasını rekonstruksiya edir.

Beynin funksional asimmetriyası ilə məşğul olan alimlər belə bir nəticəyə gəlmişlər ki, yuxugörmə ilə yaradıcı fəaliyyət arasında aşkar görünən qarşılıqlı əlaqə mövcuddur. Hər iki halda obrazlı təfəkkürə cavabdeh olan beynin sağ yarımkürəsi fəallaşır. Sağ yarımkürə obrazlı, konkret hissi, simvollarla zəngin və çoxvariantlı xüsusi bədii gerçəklik istehsal edir. Sağ yarımkərinin istehsalı olan yuxugörmə dünyanın bütün zənginliyi və daxili təzadlarını özündə ehtiva edir. Sol yarımkürənin istehsalı olan tənqidi təvəkkür birmənalı və son dərəcə aydın məntiqi konstruksiyalara istiqamətlənir və problemlərin həllinə dəqiq alqoritmlər prinsipi ilə yönəlir. Maraq doğuran cəhətlərdən biri də ənənəvi mifoloji proseslərin müasir cəmiyyətə arxaik təsəvvürlər, yuxugörmə və bədii mətn vasitəsi ilə transformasiya olunmasıdır.

### Bədii Əsərdə Yuxugörmə

Bədii əsərin yaranmasında psixikanın yalnız şəxsi deyil, həm də kollektiv təhtəlşüur qatının fəal iştirakı barədə məşhur psixoanalitiklər Z. Freyd və onun davamçısı K. Yunqun maraqlı mülahizələri mövcuddur. K. Yunqun konsepsiyasında kollektiv təhtəlşüurun struktur vahidi kimi arxetiplər diqqəti cəlb edir. Məlumdur ki, hər bir arxetip həmişə ambivalent, universal və sabit

---

[2] Большой энциклопедический словарь / Главн. ред. АМ. Прохоров. - М., 1997. - с. 1234.

məzmuna malikdir. Arxetipləri korrektə etmək mümkün deyildir, onlar apriopi mövcuddurlar. Bu qədim obrazlar ibtidai təfəkkürün təzahürü olan yuxugörmə və yaradıcılıqda sonsuz sayda rəngarəng bədii obrazlarla konkretləşirlər: "Çox zaman ən qəribə yuxular və qarabasmalar haqqında o insanlardan eşitmişəm ki, onların ruhi sağlamlığına hətta peşəkar da şübhə edə bilməz."[3] Söylənilənlərin təsdiqi kimi Yunq, öz kliniki təcrübəsinə əsaslanaraq, yazır: "...elə yuxular var ki, onlarda yuxu görənə də məlum olmayan mifoloji motivlər görünür. Yuxugörmədə umumiyyətlə, psixozlarda isə tez tez arxetipik materialla pastlaşmaq mümkündür, yəni yuxularda miflərlə eyni ilə üst üstə düşən təsəvvür və əlaqələr aşkar olunur. Bu paralellərdən çıxış edərək, mən belə bir nəticəyə gəldim ki, şüuraltı qatda həmin arxaik psixikanın doğurduğu miflər mövcuddur. Uşaqlıqdan yaddaşda saxlanan yuxugörmələr çox zaman olduqca təsirli mifoloqemlərdir."[4] Qeyd etmək lazımdır ki, arxetip həmişə əxlaqi normalar zonasından kənardadır, o müsbət olduğu kimi mənfi də görünə bilər. Eyni arxetip özünü diametral şəkildə fərqli obrazlarda göstərə bilir. Məsələn, Azərbaycan'ın görkəmli yazıçısı Yusuf Səmədoğlunun "Qətl Günü" romanı zorun, mənəm mənəmliyin, işgalçı müharibələrin cəngində inləyən dunya və nəfsin, tamahın, günahın qulu olan insan haqqındadır. Dünyada ritm, harmoniya, ahəngdarlıq pozulduğundan, Tanrı'nın yaratdığı insanlar birbirinə qənim kəsilmişlər. Bu ideyanı daha qabarıq göstərməkdən ötrü müəllif Boz Qurd arxetipindən ustalıqla faydalanır. Maraqlı orasıdır ki, görkəmli ədib cəmiyyətin deqradasiyaya ugradıgını məhz arxetipin transformasiyası vasitəsilə göstərməyə nail olur. Belə ki, sözügedən romanda Boz Qurd arxetipi qotur canavara transformasiya olunur. Ümumiyyətlə, Yusif Səmədoğlunun "Qətl Günü" romanı yalnız mövzu ideyası, və ya obrazlar sisteminin mürəkkəbliyi ilə deyil, həm də bədii cəhətdən bitkinliyi ilə seçilən yuxugörmələrlə də diqqəti cəlb edir. Yuxugörmələr "Qətl Günü" romanın kompozisiya süjet şəbəkəsinin qurulmasında mühüm pol oynayır. Hərdən qəhrəmanların gördüyü yuxular o qədər real təsvir olunur ki, onları aşkarda baş verən hadisələrdən ayırmaq çox çətin olur. Yeri gəlmişkən, bu romanın bütövlükdə bədii strukturu paradoksallığı ilə də yuxugörməni xatırladır. Yazıçı bu bədii vasitədən məharətlə istifadə edərək, qəhrəmanlarının gerçək niyyətini ortaya qoyur. Yuxugörmədən bədii vasitə kimi istifadə edən yazıçı, həm də daxil mənəvi harmoniyaya, həqiqətə aparan yolları göstərir. Təsadüfü deyil ki, romanın əsas qəhrəmanlarından biri olan Xəstə adamın öz nadir "yuxu işığı" var. Məhz bu yuxu işığı yaddaşın nəhridir, əsrlər və nəsillər arasında ünsiyyətin qovuşdugu məkandır. Bu işıq yox olarsa, insan

---

[3] Юнг К.Г. Аналитическая психология и воспитание // Юнг К.Г. Собрание сочинений. Конфликты детской души. М., 1995, s. 133-134.

[4] Yenə orada, s.134.

** Bu mövzu ayrıca tədqiqat tələb etdiyindən,növbəti məqaləmizdə geniş bəhs olunacaqdır.

tənhalığa düçar olar, keçmişin əcdadların ruhu da onu tərk edər. Fikirlərimizin təsdiqi olaraq "Qətl Günü" romanına müraciət edək: "Hər adamın öz təkrarolunmaz nadir yuxu içıgı var. Mənim işıgım dumanlı gündə güclə, öləziyə öləziyə yanan fənər işığına bənzəyir... Hec bir vaxt onun üzünü görməsən də, bircə kərə səsini eşitməsən də, əminsən ki, o, mütləq gələcək, çünki başqa cür ola bilməz işıq əbəs yerə yanmır,havayı yanmır, o gəlməlidir ki, nigarançılığa, gözüyoldalığa son qoyulsun,sənə bir udumluq təzə nəfəs versin... Daha sonra, qəflətən ürəyinə nəsə damacaq, dodaqlarını aralayıb bircə kəlmə deyəcəksən: getmə... Vəssalam. Sonra tək qalacaqsan, həmin o zəif sarımtıl, bozumtul, qırmızımtıl dumanın arasında tək tənha."[5] Romandan gətilən örnək onu söyləməyə əsas verir ki, yuxugörmə oxucunu yalnız qəhrəmanın deyil, həm də yazıçının özünün şüuraltına (şüursuzluq sferasına) yaxınlaşdırır. Yazıcının həm də qəhrəmanın qənaətinə görə, dünya və insan yuxu görməsə, keçmişin faciələri təkrar oluna bilər. Çünki əsrlərin qan yaddaşı nəsillərin yuxularına girməklə onlara ibrət dərsi verir, dünyanın, bəşərin yaddaşını ayıq və oyaq saxlamaga səfərbər edir: "Mən bir şeyə tamamilə əminəm ki, beş ilmi, on ilmi, lap əlli ilmi sonra baxır taleyin hövsələsinə ömrün uzunu gördüyün yuxular bircə bircə geri dönməyə başlayır. Bunu mən dəfələrlə sınamişam. Görürsən ki, günlərin birində, səhər yuxudan oyanan kimi, səbəbsiz filansız uşaqlığının və ya cavanlığının bir məqamı, bir əhvalatı yadına düşür, tamam unutdugun, illərin qaranlığına hopub ərimiş bir hadisəni, bir baxışı, bir səsi, bir sözü dəqiq və aydın xatırlayırsan... Mənim ən çox sevdiyim bu qəbildən olan yuxulardır. Öz aramızdır, keçmişə qayıtmağı, təzədən yaşamagı kim arzulamır ki?" [6]

Yuxugörmə insanın gündəlik həyatının davamına çevrilməklə yanaşı, həm də onu özünə qaytaran yaradıcı enerjidir. Elə buna görə də yuxugörmə çox zaman insan haqqında, hətta onun özünün belə bilmədiklərini müəyyənləşdirməyə imkan verir, əhatəli təsvirlər vasitəsilə əlavə tamamlayıcı mənaları yozur: "...Ömür tükənəndə,qəfil əcəl qapını ölümün üzünə açanda adam bu azarı ölüləri yuxuda görmək azarını tapır. Başlayırsan hər gecə bir əzizini yuxuda görməyə. Nənəni görürsən, özü də həmişəki qara kəlagayısında, özü də həmişə ilin axır çərşənbə axşamı günü. Görürsən ki, tirmə, saçaqlı süfrəli stola dirsəklənib oturmuş balaca bir oğlan uşagı şəkərbura bükən qarıya baxır, qarı da ona baxır, ancaq hec biri hec nə demir. Görürsən ki, otaqda ləzzətli bir iy var,eşikdə xəzri əsir, stolun üstündəki səməni rəngbərəng şamların işığında yaşıl alov kimi odlanıb yanır. Nəsə demək istəyirsən, amma dodaqların aralanmır, çünki bilmirsən bu balaca oğlan kimdir. Yuxudan qəfil ayılıb, ürəyinin döyüntüsünü diləyə dinləyə gözlərini qaranlıq tavana zilləyəndə,birdən yadına

[5] Yusif Səmədoğlu, Deyilənlər Gəldi Başa (Hekayələr və Romanlar), Bakı, 1999, s.155.
[6] Yenə orada, s.155-156.

düşür ki, o balaca oğlan uşagı sən özünsən, səndən və nənəndən savayı o otaqda hec kəs ola bilməzdi. Sonra fikirləşirsən ki, qırx ilə yaxındır nənəmi yuxuda görmürdüm, bəs indi niyə gördüm, görəsən yenə ciyərimdən qan gələcək? ...Öskürək səni tutur, sinən yenə partlamaya düşür, hülqumun boğazından çıxmaq istəyir, amma ciyərlərindən qan gəlmir. Yəqin nənəmi yuxuda görmək mənə düşür."[7]

Həm yuxugörmə,həm də incəsənət hər şeyin birbiri ilə əlaqəsini aşkar edərək, vahid məna bütövlüyünə nail olur. Yuxugörmə və bədii gerçəklik şərti xarakter daşıdığından, onları həmin məkandan (yuxugörmə məkanından D. Z. ) kənarda qavramaq mümkündür. Yuxugörmə və bədii gerçəklik avtonom və müstəqildir. Yuxugörən və bədii əsəri mənimsəyən insan kənar müşahidəçi üçün mövcüd olmayan realilərə yönəlir. Arxaik təsəvvurlərdə və uşaq şüurunda da oxşar hadisələr baş verir. Uşaqlar, ibtidai xalqlar kimi dünyanı spesifik qavradıqlarından, ətraf aləmi obyektiv, yaxud subyektivə bölmürlər, yuxugörən məqamda da hadisələri proqnozlaşdıra bilmədiyimizdən, baş verənləri təbii qəbul edirik və situasiyanı tənqidi qiymətləndirmək imkanından məhrum oluruq. Bu halda yuxugörənin şüurunun təhtəlşüurla (şüursuzluqla) əvəzlənməsi qənaəti özünü doğrultmur. Çünki yuxugörən zamanda da gündəlik həyatımızda hiss etdiyimiz qorxu, utancaqlıq, günah, həzz kimi hisslər keçiririk. Konkret yuxugörmə məqamında özümüzü qavraya bilmədiyimizdən,yuxuda olanalara tənqidi münasibət sərgiləyə bilmirik.

Qeyd edildiyi kimi, bir çox hallarda sənətkarlar öz bədii məqsədlərinə nail olmaqdan ötrü yuxugörmədən bir vasitə kimi istifadə edirlər. Belə ki, bədii ədəbiyyatda yuxugörmə həm də qəhrəmanın psixoloji portretininin mühüm tərkib hissəsidir. Yuxugörmədə şüurun irreal aləmlə əlaqəsi güclənir, əsrarəngiz sirrlər içərisində olan qəhrəmanı anlamaqdan ötrü mövcud şərtilikdən kənara çıxmaq tələb olunur. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan İsmayıl Şıxlı həm "Dəli Kür" , həm də "Ölən Dünyam" romanlarında bədii obrazın psixoloji vəziyyətinin açılmasında yuxu motivindən məharətlə istifadə edir. "Dəli Kür" romanın baş qəhrəmanı Cahandar ağa aranda biçinçilərə baş çəkdiyi zaman yaylaqda qoyub gəldiyi ailəsi, köç külfəti barədə qarışıq dolaşıq yuxu görür: "...Cahandar ağa bacısının ona necə həsrət və məzəmmətlə baxdığını gördü... bacısını yanina cagırdı, o gəlmədi Dərdin alım, gedəcəm, tələsirəm, işim var, burda çox qala bilmərəm, deyə cavab verdi. Gəldim sənə deyim ki, onda təqsir yoxdur. Xasiyyətini bilirəm,eşidən kimi dəli olacaqsan. Ancaq, Allah haqqı, düz sözümdür, sənin qızın tərtəmizdir, onda günah yoxdur. Salatın gül parçası kimi bir uşaqdır. Onu da mənim kimi bədəbəxt eləmə,ay qardaş, özünü də balanı

[7] Səmədoğlu, Deyilənlər Gəldi Başa (Hekayələr və Romanlar), s.129.

da odsuz ocaqsız yandırma, atam balası, eşitdinmi, Di, salamat qal, gözünə qurban olum, görürəm yaman dərd çəkirsən, ancaq fikir eləmə, olan olub, keçən kecib. Özünü üzmə. Cahandan aga hövlnak ayıldı."[8]

Bacısı Şahnigar xanımın yuxusuna girməsi və yuxuda ona xəbərdarlıq etməsi Cahandar ağanı daha da vahimələndirir. O, yuxudan ayılıb nigaran və pərişan halda at belində yaylağa, köç külfətinin yanına üz tutur. Nə isə xoşagəlməz bir hadisənin baş verdiyi ürəyinə daman pərişan və səksəkəli "Cahandar ağa bütün gecəni at belində yol gəldi. Qalın meşələrdən necə keçdiyini, köpüklü çayları nə vaxt adladığını bilmədi."[9] Göründüyü kimi, qəhrəman gördüyü yuxunun təsiri ilə psixoloji sarsıntı keçirir, içini didib dağıdan şübhələrin, niğarançılığın, qara qorxunun həyəcanını yaşayır: "O, mənzilə yaxınlaşdıqca daha da həyəcanlanırdı. Ürəyi yumaq kimi bükülür, nəfəsi darıxırdı. Kişi qorxurdu. Yaylağa yetişən kimi binədə bədbəxt bir hadisə ilə qarşılaşa biləcəyini xəyalına gətirdikcə bədəni buz kimi soyuyur, alnına tər gəlirdi. O, evdəkilərin birinin ölümünə, mal qaranın oğurlanmasına dözə bilərdi. Ancaq arvad uşağın namusuna sataşılmış olsaydı... Aman Allah, sən belə bir rüsvayçılıq eləmə..."[10] Cahandar ağanın yuxusu çin çıxır onun ailəsinə basqın edilmiş, qızı qaçırılmış, ancaq təsadüf nəticəsində sağ salamat geri qaytarılmışdır. Cahandar ağa baş verən əhvalatdan dərin sarsıntı keçirir. Bu məqamda heç şübhəsiz ki, yuxugörmədən mifoloji arxetip kimi bəhs etmək də yerinə düşərdi. Yuxugörmə arxetipi Cahandar ağa obrazını tarixi mənəvi yaddaşımızdakı digər bir obrazla Qazan Xanla doğmalaşdırır. "Kitab-i Dədə Qordud"un "Qazan Xan'ın Evinin Yağmalanması" boyundan məlum olduğu kimi, başının dəstəsi ilə ova çıxmış Qazan Xan da yatıb qara qayğılı yuxu görür: "Bilirmisin, qarındaşım Qaragünə, düşimdə nə göründi? Qara qayğılı vaqiə gördüm. Yumrugımda talbınan şahin bənim quşımı alur gördüm. Kökdən ildırım ağban evim üzərinə şağır gördüm, uzanıban gözümü örtür gördüm. Biləgimdən on barmağım qanda gördüm"[11]. Göründüyü kimi qara qayğılı yuxu,yuxunun çin çıxması, ailəyə basqın edilməsi, daha sonra isə qəhrəmanının düşmən üstünə gedərək, şərəfi uğrunda ölüm dirim savaşına girməsi Qazan Xan və Cahandar Ağa xarakter və talelərini heyrətamiz şəkildə uzlaşdırır. Bu da hər iki obrazın eyni bir kodla yuxugörmə arxetipi ilə etnosun mənəvi tarixi yaddaşına bağlılığından soraq verir.

Qeyd etmək lazımdır ki, yuxugörmə təkcə qəhrəmanın gələcək taleyini müəyyənləşdirməyə, yaxud da psixoloji portretinin zənginliyinin aydınlaşmasına xidmət etmir, həm də bütövlükdə tarixin gərdişini proqnozlaşdırır. Bu zaman

---

[8] Ismayil Şıxlı, Dəli Kür, Bakı, 1977,s.323-324.
[9] Yenə orada, s.322.
[10] Yenə orada, s.332.
[11] Kitab-i Dədə Qorqud, Bakı, Yazıçı, 1988, s. 44.

yuxu aşıq aydın siyasi çalar kəsb edir. Nümunə olaraq İsmayıl Şıxlı'nın digər bir romanı "Ölən Dünyam" a müraciət edək: Romanın əsas qəhrəmanlarından olan dünyagörmüş Ömər koxanın gördüyü yuxu yalnız onun özünün deyil, cəmiyyətin də taleyində həlledici rol oynayır: "Bilirəm.Yuxumu görmüşəm. Mən bir azdan şər qarışanda haqq dünyasına qarışacam. Sənə iki vəsiyyətim var. Biri odur ki, mən öləndən sonra çalış araya qan düşməsin. Onsuz da dünya qana çalxalanır. Belə getsə, deyəsən, adamları birbirnin üstünə qaldırıb üz göz edəcəklər. Araya qırğın salacaqlar..."[12] Ağsaqqalın gördüyü yuxudan çıxış edərək, belə bir vəsiyyət etməsi onun qarşıdan gələn hadisələrdən müdrik uzaqgörənliklə duyuq düşməsinin əlamətidir. Ömər koxa bu vəsiyyəti otən əsrin iyirminci illərinin ortalarında edir. Bilindiyi kimi, həmin dövr Sovetlərdə repressiyaya hazırlıq illəridir. El ağsaqqalı təhlükəli tarixi prosesin çox da uzaqda olmadığını yuxuda gördüyü ilkin əlamətlərlə proqnozlaşdırır. Sonradan baş verən hadisələr Omər koxanın yuxusunun çin olduğunu göstərdi. İyirminci illərin sonlarından başlayan, otuzuncu illərdə isə bütün gücüylə tüğyan edən repressiya "....adamları birbirinin üstünə qaldırıb üz göz edəcəklr.Araya qırğın salacaqlar." sözlərinin təsadüfən söylənmədiyini təsdiqləyir. Beləliklə, İ. Şıxlının "Ölən Dünyam" romanında dünyagörmüş Ömər koxanın yuxusu yalnız bədii detal deyil, həm də müstəsna mühitdir, çünki aşkarda baş verən hadisələrə münasibətdə tamamlayıcı keyfiyyət daşıyır.

**Yuxugörmənin Funksiyaları**

Gətirilən örnəklərdən aydın olur ki, bədii ədəbiyyatda yuxugörmə aşağıdakı funksiyaları yerinə yetirir:

a) Yuxugörmə həmişə qəhrəman haqqında bilavasitə anlaya biləcəyimizdən daha çox məlumat verir; obrazın psixologiyasını, onun "mən"inin gizli məqamlarını açmağa kömək edir.

b) Yuxugörmə yalnız qəhrəmanın deyil,həm də cəmiyyətin (hətta dünyanın) gələcəyindən xəbər verir; həm qəhrəmanın, həm də dünyanın gələcəyini proqnozlaşdırır.

c) Yuxugörmə oxucunu yalnız qəhrəmanın deyil, həm də yazıçının özünün şüuraltına, yaxud şüursuzluq sferasına yaxınlaşdırır.

Bir sözlə, ayrı ayrı dövrlərdə sənətkarlar yuxugörmədən öz yaradıcılıqlarında müxtəlif məqsədlərlə istifadə etmişlər. Bədii əsərlərə daxil edilən yuxugörmələr geniş və rəngarəndir. Göründüyü kimi, onlardan bəziləri açıq aşkar siyasi çalar kəsb edir, digər hallarda yuxugörmələr ədəbi qəhrəmanın

[12] Ismayil Şıxlı, Ölən Dünyam, Azərnəşr, Bakı, 1995, s.57-58.

subyektiv duyğularını daha dərindən anlamağa kömək edir, bəzən də yuxular bədii mətni daha maraqlı və oxunaqlı etmək üçün istifadə olunur. Bütün hallarda bədii əsərdəki yuxugörmələr yazıçının yaradıcı fantaziyası və real həyatla əlaqəsinin parlaq təzahürüdür. Yuxugörmə bədii vasitə kimi sənətkarlara imkan vermişdir ki, öz mübhəm fikir və hisslərini ifadə edə bilsinlər. Yuxugörmə, gələcək barədə informasiya almaq və onu (gələcəyi D. Z.) proqnozlaşdırmaq cəhdidir. Çox güman ki, bədii ədəbiyyatda yuxu və yuxugörmə fenomeninə ehtiyac bununla şərtlənir. Görünür, heç bir bədii ifadə vasitəsinin arzu olunan effefkti yarada bilməməsi bu müraciəti zəruri etmişdir.

## Sonuç

Biz belə bir nəticəyə gəldik ki, ayrı ayrı dövrlərdə sənətkarlar yuxugörmədən öz yaradıcılıqlarında müxtəlif məqsədlərlə istifadə etmişlər. Bədii əsərlərə daxil edilən yuxugörmələr geniş və rəngarəndir: Yuxugörmə həmişə qəhrəman haqqında bilavasitə anlaya biləcəyimizdən daha çox məlumat verir; yuxugörmə yalnız qəhrəmanın deyil, həm də cəmiyyətin (hətta dünyanın) gələcəyindən xəbər verir; həm qəhrəmanın,həm də dünyanın gələcəyini proqnozlaşdırır; yuxugörmə oxucunu yalnız qəhrəmanın deyil, həm də yazıçının özünün şüuraltına yaxınlaşdırır. Yuxugörmə gələcək barədə informasiya almaq və onu (gələcəyi D. Z.) proqnozlaşdırmaq cəhdidir. Çox güman ki, bədii ədəbiyyatda yuxu və yuxugörmə fenomeninə ehtiyac bununla şərtlənir.Görünür, heç bir bədii ifadə vasitəsinin arzu olunan effefkti yarada bilməməsi bu müraciəti zəruri etmişdir.

## KAYNAKÇA

Аверинцев С. С. Аналитическая психология К. Г. Юнга и закономерности творческой фантазии // О современной буржуазной эстетике: Сб. ст. Вып. 3. – М., 1972.

Бахтин М. М. Проблемы поэтики Достоевского. – М., 1972.

Большой энциклопедический словарь / Главн. ред. AM. Прохоров. - М., 1997. - С. 1234. 4.

Юнг К.-Г. Душа и миф. Шесть архетипов. – Минск, 2004.

Юнг К.Г. Аналитическая психология и воспитание // Юнг К.Г. Собрание сочинений. Конфликты детской души. М., 1995. s.133-134.

Kitab-i Dədə Qorqud, Bakı,Yazıçı,1988.

Шиллер Ф. Собрание сочинений. – В 8 т. – т. 8. – М., 1950.

Şıxlı, İsmayıl, Dəli Kür, Gənclik, Bakı, 1977.

Şıxlı, İsmayıl, Ölən Dünyam, Azərnəşr, Bakı, 1995.

Səmədoğlu, Yusif, Deyilənlər Gəldi Başa."XXI"-Yeni Nəşrlər Evi, (Hekayələr və Romanlar), Bakı,1999.